# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**“Azərbaycan Respublikasının Ailə Məcəlləsində, “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

“Azərbaycan Respublikasının Ailə Məcəlləsində, “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında”, “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” və “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1193-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 1 mart tarixli 52 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 3, maddə 209 (Cild I); 2024, № 9, maddə 1061) ilə təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti akt qeydlərində dəyişiklik, bərpa və ləğv qaydalarını müəyyən edən əsas müddəalar”ın 10-cu bəndinin ikinci abzasının ikinci cümləsində “qeyd olunması” sözləri “qeydə alınması” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 31 oktyabr tarixli 145 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 627 (Cild I); 2024, № 1, maddələr 110, 124, № 9, maddələr 1061, 1067) ilə

təsdiq edilmiş “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 1.14-1-ci yarımbənd əlavə edilsin:

“1.14-1. Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması haqqında şəhadətnamələrdə göstərilən məlumatlar EHİS üzərindən təqdim edilə (əldə edilə) bilər. Vətəndaşlıq vəziyyəti aktlarının qeydə alınması haqqında müvafiq şəhadətnamədə göstərilən məlumatların EHİS üzərindən təqdim edilməsi həmin şəhadətnamənin təqdim edilməsinə bərabər tutulur.”;

2.2. 1.18-ci bənddə “qeyd olunduğu” sözləri “qeydə alındığı” sözləri ilə əvəz edilsin;

2.3. 2.23-cü bəndin ikinci abzasında “qeyd olunmamış” sözləri “qeydə alınmamış” sözləri ilə əvəz edilsin;

2.4. 4.6-cı bəndin birinci cümləsində “qeyd olunubsa” sözləri “qeydə alınıbsa” sözləri ilə əvəz edilsin;

2.5. 5.9.2-ci yarımbəndin birinci cümləsində “qeyd edilməsi” sözləri “qeydə alınması” sözləri ilə, dördüncü cümləsində “qeyd edilibsə” sözləri “qeydə alınıbsa” sözləri ilə əvəz edilsin;

2.6. 5.10.4-cü yarımbəndin ikinci abzasında “pozulmasını qeyd etdirmək” sözləri “pozulmasının qeydə alınması” sözləri ilə, üçüncü abzasının birinci cümləsində “qeyd edə” sözləri “qeydə ala” sözləri ilə və dördüncü abzasının ikinci cümləsində “qeyd etmək” sözləri “qeydə almaq” sözləri ilə əvəz edilsin;

2.7. 5.10.5-ci yarımbəndin birinci cümləsində “qeyd olunmasını” sözləri “qeydə alınmasını” sözləri ilə və “qeyd etmək” sözləri “qeydə almaq” sözləri ilə əvəz edilsin;

2.8. 5.13-cü bənddə, 8.7-ci bəndin ikinci abzasının birinci cümləsində və 8.11-ci bənddə “qeyd edilərkən” sözləri “qeydə alınarkən” sözləri ilə əvəz edilsin;

2.9. 5.15-ci bəndin birinci abzasında “qeyd etmiş” sözləri “qeydə almış” sözləri ilə, “bağlanmasının qeyd edildiyi” sözləri “qeydə alındığı” sözləri ilə, ikinci abzasında “bağlanmasının qeyd edildiyi” sözləri “qeydə alındığı” sözləri ilə “pozulması haqqında qeyd edir” sözləri “pozulmasını qeydə alır” sözləri ilə əvəz edilsin;

2.10. 5.17-ci bəndin birinci cümləsində “qeyd etdikdən” sözləri “qeydə aldıqdan” sözləri ilə əvəz edilsin;

2.11. 6.4-cü bənddə “olunmasını qeyd etdirmək” sözləri “olunmasının qeydə alınması” sözləri ilə əvəz edilsin;

2.12. 6.13-cü bənddə “qeyd edərkən” sözləri “qeydə alarkən” sözləri ilə əvəz edilsin;

2.13. 6.20-ci bəndin üçüncü abzasında “qeyd etmiş” sözləri “qeydə almış” sözləri ilə əvəz edilsin;

2.14. 8.6-cı bənddə “qeyd edilir” sözləri “qeydə alınır” sözləri ilə əvəz edilsin;

2.15. 8.9-cu bənddə “qeyd oluna” sözləri “qeydə alına” sözləri ilə əvəz edilsin;

2.16. 13.1-ci bənddə “qeyd edilməsinin” sözləri “qeydə alınmasının” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 17 dekabr tarixli 237 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1118 (Cild I) ilə təsdiq edilmiş “Dövlət qeydiyyatına alınması tələb olunmayan fərdi məlumatların informasiya sistemləri”nin 2.3-cü bəndinə “yazılı” sözündən sonra “(o cümlədən Elektron Hökumət İnformasiya Sistemi üzərindən)” sözləri əlavə edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 29 ” “ dekabr ” 2024-cü il

№ 558